# YERİ-YERİ, QURBANIN OLUM




Yeri-yeri, qurbanın olum,
Aşiqin, heyranın olum.
Gözəllikdə bir dənəsən.

N ə q ə r a t:

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.

Ay bircə gözəl su sonası,
Başında var ağ cunası,
Ağ dişlərin dürdanəsi.

N ə q ə r a t:

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.

Xalları da var qoşa-qoşa,
Hər birisi bir tamaşa,
Mən vurğunam qələm qaşa.

N ə q ə r a t:

Yeri-yeri, qurbanın olum,
Gəl bəri, qurbanın olum,
Ay pəri, qurbanın olum.